AZƏRBAYCAN RESPUBLİKASININ MƏNZİL İNŞAATI DÖVLƏT AGENTLİYİ

MİDA

GÜZƏŞTLİ MƏNZİL SİSTEMİ

## İlkin razılıq qərarının alınmasına dair

# TƏLİMAT

Bakı şəhəri
2019

# Mündəricat

1 Giriş ........ 3
2 İlkin razılıq qərarı olmadıqda ........ 4
3 İlkin razılıq qərarının alınması üçün müraciət ........ 5
4. Yekun müddəalar ........ 9

# 1 Giriş

1.1. Azərbaycan Respublikası Prezidentinin 14.01.2019-cu il tarixli 469 nömrəli Fərmanı ilə “Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası”na (bundan sonra - Qayda) dəyişiklik edilmişdir. Dəyişikliyə əsasən “Güzəştli mənzil” sistemində barəsində elan verilmiş mənzilin seçimi zamanı mənzilin dəyərinin ipoteka krediti hesabına ödəniş üsulunu yalnız ilkin razılıq qərarını almış və “Güzəştli mənzil” sistemindəki elektron kabinetində yerləşdirilməsini təmin etmiş şəxs seçə bilər. Bununla əlaqədar olaraq, istifadəçinin elektron kabinetində “İlkin razılıq qərarı” bölməsi yaradılmışdır (Şəkil 1).




Şəkil 1

# 2 İlkin razılıq qərarı olmadıqda

2.1. İstifadəçinin elektron kabinetində ilkin razılıq qərarı olmadıqda o, “İlkin razılıq qərarı” bölməsinə daxil olub müvafiq statusu görəcəkdir. (Şəkil 2).




Şəkil 2

# 3 İlkin razılıq qərarının alınması üçün müraciət

3.1. Mənzili ipoteka kreditindən istifadə etməklə, yaxud həm ipoteka krediti, həm də öz vəsaiti hesabına əldə etmək istəyən elektron kabinet verilmiş şəxs ilkin razılıq qərarının alınması üçün agent banklardan birinə müraciət etməli və "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası" (bundan sonra – ipoteka kreditinin verilməsi Qaydası) ilə müəyyən edilmiş sənədləri təqdim etməlidir. Belə müraciətə ipoteka kreditinin verilməsi Qaydasına uyğun olaraq baxılır.

3.2. Agent bank tərəfindən müraciətə baxıldıqdan sonra verilmiş ilkin razılıq qərarı bankın məsul şəxsi tərəfindən istifadəçinin elektron kabinetinin müvafiq bölməsində yerləşdirilir (Şəkil 3).




Şəkil 3

3.2.1. İstifadəçi elektron kabinetində “İlkin razılıq qərarı” bölməsinə daxil olaraq agent bankın ilkin razılıq qərarını imzalamalıdır (Şəkil 4; 5).




Şəkil 4




Şəkil 5

3.2.2. İstifadəçinin imzaladığı ilkin razılıq qərarı agent bank tərəfindən verildiyi tarixdən etibarən 1 (bir) il ərzində qüvvədə olacaqdır. Elektron kabinetin “İlkin razılıq qərarı” bölməsində imzalanmış qərarın qüvvədə olma müddəti də qeyd olunacaqdır (Şəkil 6; 7).




Şəkil 6

Vətəndaş

| | |
|---|---|
| Adı | MƏMMƏDOV FAZİL İLHAM OĞLU |
| Şəxsiyyət vəsiqəsinin seriyası və nömrəsi | AZE4352367 |
| Şəxsiyyət vəsiqəsinin FİN kodu | 43F6SCV3 |
| Elektron kabinet nömrəsi | 20170530118064K |



İlkin razılıq qərarı

| | |
|---|---|
| Bank | Bank XXX |
| Məsul şəxs | XXX |
| Qərar | ✔ Kredit |
| Kredit məbləği | XXX AZN |
| Qərar tarixi | XX/XX/XXXX |
| Məsul şəxsin imzalama tarixi | XX/XX/XXXX |

| | |
|---|---|
| Vətəndaşın imzalama tarixi | XX/XX/XXXX |

Şəkil 7

3.3. İstifadəçinin agent banka müraciətindən sonra ipoteka kreditinin verilməsi Qaydasına uyğun olaraq imtina qərarı verildikdə, onun elektron kabinetinin müvafiq bölməsində agent bankın məsul şəxsi tərəfindən bu barədə məlumat yerləşdirilir. İstifadəçi həmin bölməyə daxil olaraq verilmiş qərarı seçdikdən sonra ətraflı məlumat əldə edə bilər. Bu zaman istifadəçinin həmin qərarı imzalaması tələb olunmur (Şəkil 8; 9).




Şəkil 8




Şəkil 9

**QEYD: İlkin razılıq qərarının alınması üçün müraciət edib ipoteka kreditinin verilməsinə imtina barədə qərar almış istifadəçi imtina səbəblərini aradan qaldırdıqdan sonra təkrarən agent banklardan birinə müraciət edə bilər.**

## 4. Yekun müddəalar

İlkin razılıq qərarı almış elektron kabinet verilmiş şəxs həmin qərarın verildiyi tarixdən bir il ərzində Qaydaya uyğun olaraq mənzil əldə etmədikdə, lakin mənzili ipoteka kreditindən istifadə etməklə, yaxud həm ipoteka krediti, həm də öz vəsaiti hesabına əldə etmək istəyində olarsa, yenidən agent banka müraciət etməli, ilkin razılıq barədə qərar almalı və həmin qərarı "Güzəştli mənzil" sistemindəki elektron kabinetində yerləşdirməlidir.

***Bu təlimatda qeyd olunan istifadəçinin adı, ünvanı, əlaqə vasitələri, şəxsiyyət vəsiqəsinin məlumatları və digər məlumatlar şərtidir.***